Dövlət Mükafatına təqdim olunan əsərlər

Cahan o qədər də böyük deyildir... və ya Azərbaycan multikulturalizminin parlaq nümunəsi









Filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun "Volter və Hüqonun Şərq dünyası" əsərində Əmir Teymurun məşhur bir kəlamı diqqətə çatdırılır: "Cahan o qədər də böyük deyildir ki, iki nəfər ona hökmranlıq etsin".

Azərbaycanlı alim öz əsərləri ilə sanki həmin fikri bir daha təsdiq edir ki, doğrudan da dünya o qədər də böyük deyildir. Tədqiqatçının Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim etdiyi fransız ədəbiyyatına aid silsilə əsərlər də bunun bariz nümunəsidir:

"Hüqo". Bakı, "Mütərcim", 2014. (Azərbaycan və fransız dillərində); "Hüqo - fransız ədəbiyyatının milyarderi". Fransa, "Presses Akademiques Franncophones" nəşriyyatı, 2015 (fransız dilində); "Hüqo". ABŞ, "Lulu Enterprises" nəşriyyatı, 2016 (ingilis dilində); "Hüqonun Şərq baxışı". İngiltərə. "Rossendale Books" nəşriyyatı, 2016 (ingilis dilində); Volter və Hüqonun Şərq baxışı". Kanada, "Frist chois Books" nəşriyyatı, 2016 (ingilis dilində); "Şərq Volter yaradıcılığında". Hindistan, "Cinnamonteal" nəşriyyatı, 2017 (ingilis dilində); "Volter və Hüqonun Şərq dünyası". İsveç, "Tryck Holmberqs" nəşriyyatı, 2018 (ingilis dilində).

Sevindiricidir ki, bu əsərlərdən əlavə professor Əsgər Zeynalovun Sankt-Peterburq, Moskva, Almaniya və ABŞ-da iki kitabı, Türkiyə, İran, Serbiya və Rusiyada 10 məqaləsi işıq üzü görmüşdür. Tədqiqatçının xarici ölkələrdə nəşr olunmuş kitabları dünyanın bütün qitələrinə yayılmışdır.

Fransanın nüfuzlu orqanlarından olan "LEst republicain" qəzetində 2007-ci il avqust ayının 11-də dərc olunmuş "Hüqonun azərbaycanlı mütəxəssisi Tətbiqi Dilçilik Mərkəzində" adlı məqaləsində, yenə də həmin qəzetin 2014-cü il iyulun 24-də işıq üzü görmüş "Qoca Hüqo, bəşəri Hüqo" məqaləsində, eləcə də Parisdə fəaliyyət göstərən Viktor Hüqonun Dostları Cəmiyyətinin məcmuəsinin 2013, 2015, 2016, 2019-cu il nömrələrində dərc olunmuş yazılarda Ə.Zeynalov Fransanın elmi-ədəbi ictimaiyyətinə məhz Hüqonun mütəxəssisi kimi təqdim olunmuşdur. Ümumiyyətlə, tədqiqatçı Volter yaradıcılığından doktorluq dissertasiyasını müdafiə etsə də, o, beynəlxalq aləmdə daha çox Hüqonun mütəxəssisi kimi tanınıbdır. Onun Hüqo haqqında nəşr olunmuş monoqrafiyaları dünyanın 30-a qədər ölkəsinə yayılmışdır. Bosniya-Hersoqovinalı alim, akademik Enes Karic Sloveniyada nəşr olunan "Preporod" qəzetinin bir iyul 2017-ci il tarixli nömrəsində dərc etdirdiyi "Viktor Hüqo Məhəmməd peyğəmbər haqqında" məqaləsində professor Ə.Zeynalovun yaradıcılığına bir neçə dəfə istinad etmişdir. O, bu məqaləni yazarkən müəllifin İngiltərənin paytaxtı Londonda işıq üzü görmüş "Hüqonun Şərq baxışı" əsərindən istifadə etmişdir.

Ə.Zeynalovun yaradıcılığına diqqət yetirdikdə, onun həm milli, həm də son dərəcə beynəlmiləl bir ziyalı olduğu aydın görünür. O, son 30 ildə Azərbaycanın ictimai-siyasi həyatında baş vermiş bütün hadisələrə yazılarıyla öz münasibətini bildirmişdir: Qarabağ hadisələri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı və s.

Ə.Zeynalovun təxminən 15 illik zəhmətinin bəhrəsi olan "İrəvan ziyalıları" kitabı əvvəlcə Bakıda Azərbaycan, rus və ingilis dillərində çap olundu. 2011-ci ildə həmin kitab professor Boris Starkovun ön sözüylə Sankt-Peterburqda, 2013-cü ildə professor Rudolf İvanovun ön sözü ilə Moskvada nəşr edildi. Dünya şöhrətli rus alimləri B.Starkov və R.İvanovun ön sözləri ilə "İrəvan ziyalıları" kitabı 2016-cı ildə ABŞ-da ingilis dilində işıq üzü gördü. Erməni lobbisinin riyakarcasına canfəşanlıq etdiyi bir dövrdə belə bir milli qeyrətdən yoğrulmuş kitabın ABŞ-da nəşri çox böyük cəsarət tələb edirdi. Professor Ə.Zeynalovun əsərinə söykənən hər iki rus alimi bir danılmaz həqiqəti təsdiq edirdi ki, İrəvan azərbaycanlıların əski yaşayış məskəni, elm və mədəniyyət mərkəzi olmuşdur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, "İrəvan ziyalıları" kitabının ABŞ nəşrinə dünyanın 20-dən artıq ölkəsində rast gəlinir.

Xarici ölkələrdə nəşr olunmuş "İrəvan ziyalıları" kitabında təqdim olunan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aşağıdakı sözləri bu torpaqların kimə məxsusluğunu dünya oxucularına açıq şəkildə bəyan edir: "Biz hamımız yaxşı bilirik ki, indiki Ermənistan dövləti azərbaycanlıların tarixi torpaqları üzərində yaranmışdır. İrəvan xanlığı, Zəngəzur mahalı və digər regionlar bizim tarixi torpaqlarımızdır".

Bir neçə dildə tədqiqat aparan, respublikamızı xarici ölkələrdə keçirilən beynəlxalq konfrans, qurultay və tədbirlərdə layiqincə təmsil edən professor Ə.Zeynalov, qeyd olunduğu kimi, milliliklə yanaşı, həm də beynəlmiləl bir alimdir. Azərbaycan Respublikası Dövlət Mükafatına təqdim olunan Bakı ilə yanaşı Fransa, ABŞ, İngiltərə, Kanada, Hindistan və İsveçdə nəşr olunan fransız ədəbiyyatına aid silsilə kitabları da bunun təkzibedilməz sübutudur. Bizcə, bu Azərbaycan multikulturalizminin əyani təzahürüdür. Bu əsərlərdə iki dahi fransız ədibi Volter və Hüqonun yaradıcılığı geniş surətdə tədqiqata cəlb olunsa da, "Hüqonun müasirləri" bölməsində Onore dö Balzak, Aleksandr Düma, Jorj Sand, Qustav Flober, Qi dö Mopassan haqqında yazılara da yer ayrılmışdır.

Azərbaycan alimi fransız ədiblərinin əsərlərini əksər məqamlarda multikultural baxımdan təhlil etməyə çalışmışdır.

Fransız yazıçısı "Astiyaq əfsanəsi"ni Rablenin "Qarqantua və Pantaqruel" əsəri ilə müqayisə edir və əfsanədəki hadisələrin daha real olduğunu söyləyir.

Tədqiqatçının əsərlərindən bəlli olur ki, Volterin ən çox ağızdolusu, ürək açıqlığı ilə bəhs etdiyi xalqlardan biri də hindlilərdi. Fransız yazıçısı heyranlıqla yazır ki, hindlilər beş min əvvəl özlərinin hanskrit və ya sanskrit dillərində "Veda" və "Kasta" adlı kitablarını yaratmışlar. Dörd min əvvəl bu qədim xalqın öz poeziyası artıq mövcud idi. Dahi mütəfəkkir yazıçı öz araşdırmalarından sonra belə qənaətə gəlir ki, hindlilər dünya mədəniyyətinə üç əsas yeniliyi bəxş etmişlər: Avropaya ərəblərin apardığı onluq rəqəmi, təmsilləri və şahmat oyununu.

Volterin Çin mədəniyyətinə baxışı da diqqət çəkir. Bu qədim ölkənin dini, dövlət quruluşu, elmə münasibəti də "Esse"lərdə öz əksini tapmışdı. Çin və Hindistan mədəniyyətini müqayisə edən fransız ədibi - "Mədəniyyət ilkin harada yaranmışdır?" ritorik sualına cavab verərək yazır ki, Çində yeni məlum olan bir şey Hindistanda artıq çoxdan mövcud idi. Mütəfəkkir yazıçı onu da əlavə edir ki, Pifaqor təkzibedilməz faktlarla dəqiq elmlərin ilk dəfə Hindistanda yarandığını söyləyirdi.

Professor Ə.Zeynalovun istər Hindistanda nəşr olunan "Şərq Volter yaradıcılığında" və istərsə də Nobellərin vətəni İsveçdə işıq üzü görmüş "Volter və Hüqonun Şərq dünyası" əsərlərində əsas diqqəti cəlb edən məqamlardan biri Volterin türk baxışıdır. Dahi ədib türklərin təxminən 2500 illik tarixinə nəzər salaraq yazır: "Türklər, tatarlar, skiflər eyni kökə mənsubdurlar. Atillanın da bu kökə mənsubluğunu nəzərə alsaq, onda görərik ki, onlar bütün yer üzünü işğal etmişdilər. Onların buna mənəvi haqları da var idi, çünki onlar hamıdan güclü, sərt və qüvvətli idilər. "Yazıçı onu da xüsusi vurğulayır ki, türklərin sərtliyi əcdadları skiflərdən qalmışdır. Türklərin xarakterindən bəhs edən Volter yazır ki, türklər ifrat dərəcədə məğrurdurlar. "Esse"lərin digər bir yerində "Türklər həm sərt, həm də mərhəmətlidirlər" - deyə söyləyir. "Esse"lərdə türklərin 1453-cü ildə İstanbulu fəth etməsinə və II Sultan Mehmet Fatehin döyüş istedadına da geniş yer ayrılmışdı.

Tədqiqatçının əsərlərindən aydın olur ki, Volterin "Millətlərin adətləri və düşüncə tərzi haqqında esse" əsərində müraciət etdiyi Şərq xalqlarından biri də ərəblərdir. Burada ədibin Məhəmməd peyğəmbərin həyatı, onun islam dinini yaradıb yayması üçün fəaliyyəti, hücumları, onun özü və banisi olduğu islam dini haqqında, Əbubəkr, Ömər, Osman, Əlinin xəlifəliyi, Əməvilər və Abbasilər sülalələri və ən başlıcası ərəb mədəniyyəti ilə bağlı düşüncələri öz əksini tapmışdır. Onu ayrıca vurğulamaq lazım gəlir ki, yazıçı "Esse"lərdə istər Məhəmməd peyğəmbər, onun gətirdiyi yeniliklər və eləcə də "Qurani-Kərim" haqqında yüksək fikirdə olmuşdur. Dahi mütəfəkkir heç bir sözü sıxmadan, qənaət etmədən ərəb mədəniyyətindən ağızdolusu danışır, onların simasında Şərq mədəniyyətinin, elminin, incəsənətinin bütün sahələrinin Avropanı bir neçə əsr qabaqladığını xüsusi bir şövqlə təqdim edir - riyaziyyatın da, kimyanın da, fizikanın da, astronomiyanın da, ədəbiyyatın da.

Geniş şəkildə müqayisələr aparan Volterin Avropa şovinizmindən, eqoizmindən uzaq, əsl insana xas olan böyüklüklə dediyi yekun söz, gəldiyi qənaət, son nəticə də həqiqəti təcəssüm etdirir: "Hansı tərəfə baxsaq, etiraf etməliyik ki, biz yalnız dünən mövcud olmuşuq. Biz daha yaxşı işləməliyik, çünki sonuncu gəlmişik, başqaları isə daha qədimdirlər".

Bir məsələni də ayrıca qeyd etmək lazım gəlir ki, Ə.Zeynalov fransız ədibinin fikirlərini ehkam kimi qəbul etmir, lazım gəldikdə ona öz münasibətini bildirir. Məsələn, Volterin "Esse"lərində məşhur hind riyaziyyatçısı Aryabaxtanın, Şərq dahiləri Əl-Fərabi, Əl-Cahiz, Əl-Biruni, Firdovsi, Ömər Xəyyam, Nizami Gəncəvi, Hafiz Şirazinin adlarını çəkməməsi, türklərin ərəb xilafətində əsas aparıcı qüvvə olmasından, Hindistanın idarə edilməsində və orada dünya şöhrətli abidələrin, o cümlədən mənşəcə türk olan Əkbər şahın (1605-27) dövründə tikilmiş "daş nağıl", "daş möcüzə" olan Fəthluo-zikri və Cahan şahın (1627-38) öz xanımının şərəfinə tikdirdiyi məşhur Tac-Mahal məqbərəsi haqqında fransız ədibinin heç bir söz söyləməməsi müəllifdə təəssüf hissi doğurur.

Volter dövrün reallıqlarını əks etdirən əsərlərdən daha çox tarixi mövzulara müraciət etmişdir ki, bunlardan biri də "Skiflər" faciəsidir.

Müəllifin "Volter və Hüqonun Şərq dünyası" monoqrafiyasında "Skiflər" əsəri geniş şəkildə təhlil olunub və əsərdəki bəzi məqamlar "Kitabi-Dədə Qorqud" dastanındakı hadisələrlə müqayisə edilmişdir. Tədqiqatçı bu müqayisə ilə skiflərin və "Kitabi-Dədə Qorqud"un yaradıcısı oğuzların eyni kökdən olduğunu dəlillərlə sübut etməyə çalışır.

Qeyd olunduğu kimi professor Ə.Zeynalov doktorluq dissertasiyasını Volterdən müdafiə etsə də, o, beynəlxalq miqyasda daha çox Hüqonun mütəxəssisi kimi tanınmışdı. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatşünaslığında Volter və Hüqo haqqında ilk monoqrafiyalar bu zəhmətkeş tədqiqatçının adı ilə bağlıdır.

Görkəmli ədəbiyyatşünas alim Cəlil Nağıyev yazır ki, professor Ə.Zeynalovun Hüqo ilə bağlı monoqrafiyasında bütün bölmələr yeni məlumatlar və faktlarla zəngin olsa da, onun həmin əsərlərdə öz əksini tapmış "Hüqo islam dinini qəbul etmişdirmi?" yazısı hər bir oxucuda ciddi maraq doğurur. Tədqiqatçı göstərir ki, fransız ədibi 1859-cu ildə nəşr etdirdiyi "Əsrlərin əfsanəsi" adlı kitabın birinci cildində islam dininə həsr etdiyi üç şeir diqqəti cəlb edir: "Hicrinin doqquz ili", "Məhəmməd", "Sidr ağacı". Çox təəccüblü haldır ki, 1902-ci ildə Hüqonun anadan olmasının 100 illik yubileyində Fransanın yuxarı dairələrində bu əsərlərin bir əsr çap olunmaması barədə sərəncam verilir.

Ə.Zeynalov təəssüf hissilə onu da vurğulayır ki, Hüqo haqqında 800-1000 səhifəlik monoqrafiyalarında fransız alimləri Andra Besson, Maks Qallo, yaxud Morua, Qamarra, eləcə də rus alimləri Poezdkov, Treskunov, Safronov ədibin türk-yunan müharibəsindən bəhs edən 15-20 misralıq şeirlərindən ağızları köpüklənə-köpüklənə danışırlar, ancaq Məhəmməd peyğəmbərə həsr etdiyi "Hicrinin doqquz ili" - 156 misradan ibarət poemadan bir kəlmə belə danışmır, adını çəkmirlər. Poema əsasən Məhəmməd peyğəmbərin ömrünün son vaxtlarına həsr olunsa da, onun həyatı əslində bu əsərdə bəzi xırda detalları ilə öz əksini tapmışdı.

Azərbaycanlı ədəbiyyatşünas alim fransız dilində nəşr olunmuş qaynaqlara, əldə etdiyi tutarlı faktlara əsaslanaraq belə qənaətə gəlmişdir ki, dahi fransız ədibi Hüqo islam dinini qəbul etmiş, hətta Əbu Bəkr müsəlman adını da götürmüşdür. Tədqiqatçı fransız qaynaqlarından əldə etdiyi faktları monoqrafiyalarında belə təqdim edir: "Şairlərin ən parlağı müsəlman idi. Heç kəs bilmirdi ki, məşhur Hüqo müsəlman idi... Şübhəsiz ki, onun müsəlman olduğunu mediada demək olmurdu... Bu təkrarsız poemaların müəllifi Hüqo inam (cihad) təsdiq edərək bildirmişdir ki, "Allah təkdir, onun heç bir şəriki yoxdur. Məhəmməd onun elçisidir".

Monoqrafiyalarda qeyd olunur ki, Hüqonun vəfatının ertəsi günü fransız katolik partiyasının orqanı olan "Xaç" qəzeti 1885-ci il may ayının 23-də yazmışdı: "Otuz ildən bəridir ki, o dəlidir". Müəllifin fikrincə, otuz il əvvəl təxminən "Hicrinin doqquz ili" poemasının yazdığı vaxta təsadüf edir. Əsərlərdən o da bəlli olur ki, Hüqo ömrünün son vaxtlarında bir gündə dəfələrlə "Qurani-Kərim"in "Əl-Fatihə" surəsindən "İhdinas siratəl müstəqim - Tanrı özün bizə doğru yol göstər" kəlamını deyib ağlayırmış.

Hüqonun islam dinini qəbul etməsi fikrinə münasibətini bildirən akademik Nizami Cəfərov yazmışdı: "Ə.Zeynalov çox böyük cəsarətlə qələmə aldığı "Hüqo islam dinini qəbul etmişdirmi?" yazısını İngiltərənin paytaxtı Londonda nəşr olunan "Hüqonun Şərq baxışı" və Kanadanın Viktoriya şəhərində işıq üzü görən "Volter və Hüqonun Şərq baxışı" kitablarında oxuculara ingilis dilində təqdim etmişdir. Əlbəttə, çağdaş dövrümüzdə xristian dünyasının islam aləminə qənim kəsildiyi bir vaxtda şərq təəssübkeşliyi ilə yazılmış belə kitabları iki nəhəng xristian dövlətində nəşr etdirmək müəllifdən çox böyük şücaət və iradə tələb edir. Əsl azərbaycanlı, türk, Şərq oğlu olan professor Ə.Zeynalov bu ağlasığmaz, çətin bir işin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir".

Əlavə etmək lazım gəlir ki, tədqiqatçının həmin yazısı İsveçdə nəşr olunmuş "Volter və Hüqonun Şərq dünyası" (2018) kitabında oxuculara təkrar təqdim edilmişdi. Alimin həmin yazısı London nəşrindən az sonra bütün qitələrə yayılmışdı və qeyd olunduğu kimi Bosniya-Hersoqovinalı alim, akademik Enes Karic bu məqaləyə dəfələrlə istinad etmişdir.

Nyu-York Elmlər Akademiyasının üzvü, Özbəkistan Turan Elmlər Akademiyasının akademiki, Parisdə fəaliyyət göstərən Viktor Hüqonun Dostları Cəmiyyətinin üzvü, Türk Dünyası Araşdırmalar Beynəlxalq Akademiyasının akademiki, Almaniyada fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyasının üzvü, professor Ə.Zeynalov bundan əvvəl əsərlərini üç dəfə Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim etmişdir - 2012, 2014, 2016. Çox maraqlı haldır ki, həmin vaxt təqdim olunan əsərlərin hər biri ayrı-ayrılıqda müxtəlif dövlətlərdə nəşr olunmuşdur. 1. "İrəvan ziyalıları" - Sankt-Peterburq, rus dilində (2012); 2. "Hüqo" - Bakı, Azərbaycan və fransız dillərində (2014); 3. "İrəvan ziyalıları", "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" - ABŞ, ingilis və Azərbaycan dillərində (2016).

İndi isə Azərbaycan Dillər Universiteti tərəfindən təqdim olunmuş Azərbaycan, Fransa, ABŞ, İngiltərə, Kanada, Hindistan və İsveçdə işıq üzü görmüş fransız ədəbiyyatına aid silsilə əsərlər 2019-cu il dekabrın 27-də Ə.Zeynalovun bu əsərləri ADU-nun Elmi Şurasında Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim edilməsi müzakirə olunarkən universitetin rektoru, Əməkdar elm xadimi, xalq yazıçısı akademik Kamal Abdullayev, elmi işlər üzrə prorektoru, professor Novruz Məmmədov, professorlar Qorxmaz Quliyev, Şahin Xəlilli, Fikrət Cahangirov,Sərxan Abdullayev və bu əsərlərin ingilis dilinə tərcüməçisi dosent Fialə Abdullayeva çıxış edərək ədəbiyyatşünas alimin yaradıcılığını yüksək qiymətləndirib, həmin əsərlərin Dövlət Mükafatına layiq olduğunu bildirdilər.

Azərbaycanda həmişə başqa xalqların dillərinə, dinlərinə, adət-ənənələrinə, mədəniyyətinə hörmətlə yanaşılmışdır. Tarix boyu ədəbiyyatımızda dünya xalqları nümayəndələrinin surətləri öz əksini tapmışdır. N.Gəncəvidən başlayaraq H.Cavid yaradıcılığına qədər və bu gün də davam etməkdədir.

Tədqiqatçı Volter və Hüqonun yaradıcılığını multikultural dəyərlər baxımından araşdıraraq və xalqımızın multikulturalizm ənənələrini ləyaqətlə davam etdirərək fransız ədəbiyyatına aid yazdığı silsilə əsərləri respublikamızla yanaşı dünyanın ən böyük və ən tanınmış ölkələrində nəşr etdirməsi Azərbaycan elminin sevindirici uğur və nailiyyətidir. Filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun dünyanın yeddi ölkəsində nəşr olunmuş fransız ədəbiyyatına aid əsərləri Azərbaycan Respublikasının Dövlət Mükafatına tamamilə layiqdir.

Şahin XƏLİLLİ,
Filologiya elmləri doktoru, professor.
Aynur SABİTOVA,
Filologiya elmləri doktoru, professor.